TURK ELI

International Scientific Journal



Volume 1 | Issue 1 | 2026

Manas, Kyrgyz Republic

www.turkeli.science

TURK ELI
INTERNATIONAL SCIENTIFIC JOURNAL

The journal is officially registered as a mass media outlet by the Justice Department of Manas Region under the Ministry of Justice of the Kyrgyz Republic in accordance with Registration Certificate No. 10339 dated March 11, 2024. The journal is registered under the title “TURK ELI” International Scientific Journal and is authorized for publication in Kyrgyz, Turkish, Uzbek, Kazakh and English languages.

Honorary President
Sarvar Ispahi

Editor-in-Chief
Jenishbek Duysheev

Deputy Editor in-Chief
Rahmonali Hasanov

Editorial Board:

Ablat Khodjaev (Prof. Dr.)
Shakimashrip Ibraev (Prof. Dr.)
Shohistahon Uljaeva (Prof. Dr.)
Kubanychbek Kalchakeev (Prof. Dr.)
Abdimajid Madraimov (Prof. Dr.)
Shukhrat Sattorov (Prof. Dr.)
Ibrahim Kush (Dr.)
Faig Elekberli (Dr.)
Erdenebayar Nasanbat (Dr.)
Gulnara Anarbaeva (Dr.)
Nurgul Aldabek (Dr.)
Nurjamal Myrzabaeva (Dr.)
Takhirjan Kazakov (Dr.)
Elmira Hazratkulova (Dr.)
Azamat Kaliev (Dr.)
Abdulvakhidkhon Nuriddinov (Dr.)

Technical Editor
Laziz Baxtiyorov

Publisher: turkeli.science
E-mail: editor@turkeli.science

Contents

N.Erdenebayar **B.Jargalsaikhan**	Skiing Tradition of Altai Uriankhai	**4**
E.A.Avazov **Zh.A.Duisheev**	The Andijan Uprising of 1898: Main Issues of Discussion in the Historiography of the Colonial and Soviet Era	**7**
Sh.Kh.Sattarov	Service Diversification And Economic Efficiency	**13**
S.Dj.Saidova	Leadership Competence and Creativity in Managing Challenging Personnel in Higher Education Institutions	**16**
Kh.I.Mamadaliyev	Urban History of the Fergana Valley (1876–1924): A Case Study of Osh	**21**
A.B.Zuftarov	Development of The Service Sector in The Context of the Digital Transformation of Azerbaijan's Economy	**24**
I.K.Usarov **Sh.T.Karimova** **M.Y.Badalbayeva** **A.A.Beknazarov** **Sh.T.Uljayeva**	Enhancing Students' Lexical Competence Through Systematic Use of Authentic Texts: a Task-based and Corpus-supported Methodology	**29**
B.R.Karimov	Challenges in the Development of Turkic Civilization Languages: Perspectives on the Formation of a Common Turkic Language and a Unified Turkic Script System	**32**
N.Juraev	The Philosophy of the Soul and the Heart in Ibn Sina's Thought	**35**
N.Nazarov	Interethnic Relations and Societal Development in Central Asia	**42**
Kh.J.Barotova	The Representation of Nature in the Epic Farhod and Shirin	**46**
Sh.Kh.Buriev	Conservation of Museum Objects and the Preservation of Historical Memory: A Key Factor in Societal Development (The Case of Uzbekistan, 1991–2025)	**50**
K.M.Gulomova	Scientific and Pedagogical Foundations of Fostering Independent Thinking in Higher Education Students	**53**
D.S.Saparboeva	Organizing Didactic Games in Primary Education	**56**
İ.H.Cəbrayılov	Contemporary Approaches to History Education: Challenges of Learning and Teaching	**58**
O.Musaev	Peculiarities of National Policy Implementation in Multinational Countries	**62**
E.Sultanova **R.Hasanov**	The Organization of Turkic States: A Significant Political Actor on the Global Stage	**66**
O.Musaev **Z.Murodova**	The Historical Development of International Relations and the Processes of Their Transformation	**70**
R.Yarkulov	Mechanisms for Improving Students' Creative Engagement through Digital Technologies: A Case Study of the Logistics Education Program	**74**
R.Hasanov	The Person of Amir Temur and His Martyr Art and State Administration	**79**
R.Khalikova	Amir Temur's Personality and Political Activities as Reflected in Historical Sources	**81**

Contemporary Approaches to History Education: Challenges of Learning and Teaching

İntiqam Hilal oğlu Cəbrayılov (Doctor of Pedagogical Sciences, Professor)[1]
intiqamcebrayilov@gmail.com | ORCID: 0000-0003-2437-5926
[1.] Azerbaijan Institute of Education
Baku, Azerbaijan

Abstract.
The article discusses the importance and application features of innovative approaches in teaching history in the modern era. It is noted that history has great opportunities for in-depth study of social life. This subject also forms historical thinking in students. The teacher plays an important role in delivering the acquired necessary knowledge and skills to students. The use of electronic teaching methods and auxiliary tools by the subject teacher to activate students at any time has a serious impact on the creative mastery of the subject being studied. Research and current experience show that it is very important to keep the issues mentioned in teaching with active, interactive methods in mind during the learning process.
Keywords: history, modern approaches, teaching and learning process, learning, education, school, quality, knowledge, skills

Tarixin tədrisinə müasir yanaşmalar: öyrənmə və öyrətmə məsələləri

İntiqam Hilal oğlu Cəbrayılov (pedaqogika elmləri doktoru, professor)[1]
intiqamcebrayilov@gmail.com | ORCID: 0000-0003-2437-5926
[1.] Azərbaycan Respublikasının Təhsil İnstitutu
Baku, Azərbaycan

Xülasə.
Məqalədə müasir dövrdə tarix fənninin tədrisində innovativ yanaşmaların əhəmiyyətindən və tətbiqi xüsusiyyətlərindən bəhs edilir. Qeyd edilir ki, tarix fənni cəmiyyət həyatının dərindən öyrənilməsində böyük imkanlara malikdir. Bu fənn eyni zamanda təhsilalanlarda tarixi təfəkkür formalaşdırır. Qazanılmış zəruri bilik və bacarıqlar təhsilanlara çatdırılmasında müəllim amili mühüm rol oynayır. Fənn müəlliminin elektron dərs formasından, istənilən anda təhsilalanları fəallaşdrmaq üçün yardımçı vasitələrdən istifadə etməsi öyrənilən mövzunun yaradıcı şəkildə mənimsənilməsinə ciddi şəkildə təsir göstərir. Araşdırmalar və mövcud təcrübə göstərir ki, təlim prosesində fəal, interaktiv metodlarla tədrisində qeyd edilən məsələlərin diqqətdə saxlanılması olduqca vacibdir.
Açar sözlər: tarix fənni, müasir yanaşmalar, öyrənmə və öyrətmə prosesi, cəmiyyət, təhsil, məktəb, keyfiyyət, bilik, bacarıq

Cəmiyyətin inkişafı təhsildən başlayır. Təhsilin inkişafında cəmiyyətin bütün üzvləri iştirak edir. Sadəcə cəmiyyət üzvləri təhsilin keyfiyyətində maraqlı olan tərəfə və bu prosesdə uzaqdan müşahidə edən tərəflərə bölünür. Maraqlı olan tərəf Elm və Təhsil Nazirliyi, onun tabeliyində olan təhsil müəssisələri və burada çalışan pedaqoji kadrlar (ekspertlər, direktorlar, psixoloqlar, müəllimlər), eyni zamanda prosesi uzaqdan maraqla izləyən cəmiyyətin digər üzvləridir. Deməli, "cəmiyyətin inkişafı təhsildən başlayır" fikri yerinə düşür. Bu cəmiyyətin uğuru da təhsil müəssisələrində tədrisin yüksək keyfiyyətə malik olması üçün lazımi şəraitin qurulması ilə bağlıdır. Əlbəttə ki, bu günkü təhsil 100 il bundan əvvəlki təhsildən çox fərqlənir. Keyfiyyətli təhsil o zaman mümkün olur ki, sinifdə, auditoriyada yüksək texnologiyanın tətbiq olunduğu elektron tədris vasitələrindən istifadə edilsin. Fənn müəlliminin elektron dərs formasından, istənilən anda təhsilalanları fəallaşdrmaq üçün yardımçı vasitələrdən istifadə etməsi öyrənilən mövzunun yaradıcı şəkildə mənimsənilməsinə ciddi şəkildə təsir göstərir. Araşdırmalar və mövcud təcrübə göstərir ki, təlim prosesində fəal, interaktiv metodlarla tədrisində qeyd edilən məsələlərin diqqətdə saxlanılması olduqca vacibdir.

Tarix insanla zaman arasında əlaqələndirici vasitədir. Və zaman daxilində baş verən hadisələri öyrənir, onun səbəblərini araşdırır, nəticələrini tədqiq edir. İlk insanın meydana gəlişindən bu günədək cəmiyyət dayanmadan inkişaf edir, yeni texnologiyalar yaranır, yeni kəşflər edilir. Bütün bunlar müəyyən zaman daxilində baş verir.

İnsan cəmiyyətinin yaranışından bu günədək tarix yazılır. Yazılı və ya şifahi, maddi, qeyri-maddi formada tarix öyrənilir. Aydın məsələdir ki, tarixin öyrədilməsi məktəbdən deyil, hər şeydən əvvəl, uşaqların dünyaya gəldiyi ailələrdən başlayır və məktəbdə davam edir. Elə tarix elminin başlıca xüsusiyyətlərindən biri də budur. Evində mənsub olduğu ana, ata, qohum-əqrabasını tanıyan gələcək şagird tədricən valideynlərinin, babalarının mənsub olduğu toplumun mənşəyini öyrənir.

Bəziləri tarix elmini qeyri-dəqiq elm kimi xarakterizə etməyə çalışırlar. Lakin özünün səciyyəvi xüsusiyyətlərinə görə tarixi dəqiq elm kimi əsaslandıra bilərik. Çünki baş verən hadisələr araşdırmalar nəticəsində öyrənilir və dəqiq tarix göstərilməsi zərurəti yaranır. Olmayan bir qondarma məsələ, yalan üzərində qurulmuş hadisə tarixə yazıla bilməz, onun haqqında söylənilən fikir də saxtalığı ilə diqqəti cəlb edəcək. Yalan rəqəm və ya adlar tarixdə qala bilməz.

Tarix fənninin digər fənlərdən fərqi ondan ibarətdir ki, fənnin məzmunu dünən baş verən, bu gün yaşanan və sabahkı proseslər üçün zəmin hazırlayan hadisələrlə zəngindir. Aydın məsələdir

ki, insan cəmiyyətinin mövcud olduğu bütün zamanlarda tarix öyrənilib. Söhbət insan cəmiyyətinin, inkişaf etdiyi dövrlərdən gedir. Əlbəttə ki, ilk zamanlar insanlar ibtidai icma cəmiyyətindən dövlətlərin yaranmasınadək tarixi yaşayıblar. Daha sonrakı dövrlərdə yaratdıqları dövlətlərin siyasi, iqtisadi, sosial inkişafını təmin edib, mədəniyyətini tədricən zənginləşdirb, tarixini yazıblar.

İnsanın öyrənmə prosesi fasiləsiz olaraq bütün ömrü boyu davam edir. Xalqın övladları öz tarixinin bir hissəsini ilk növbədə evdə valideynlərindən, bir hissəsini təhsil ocağında tarixi tədris edən müəllimdən, bir hissəsini isə özü araşdırma apararaq müstəqil öyrənmə formasında həyata keçirir. Bu baxımdan öyrənmə, araşdırma prosesinin özü həm də obyektiv xarakter daşımalı, tarixi hadisə və proseslərin dəqiq analizi verilməli, məntiqi, elmi ümumiləşdirilmiş nəticələr çıxarılmalıdır.

Qeyd edək ki, türk xalqları sırasında Azərbaycan xalqının da öz xüsusi yeri yeri vardır. Məlumdur ki, xalqımız tarixən güclü, böyük dövlətlər yaratmış, əsrlərlə öz ərazi bütövlüyümüzü qorumaq üçün düşmənlərə qarşı mübarizə aparmışdır.

Vətən tarixinin tədrisində öyrənmə prosesi məhz qeyd etdiyimiz bu məsələlər üzərində həyata keçirilməli, zaman-məkan, dövlət-şəxsiyyət və mədəniyyət münasibətləri nəzərə alınmalıdır. Azərbaycan tarixinin ümumtəhsil məktəblərində tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, öz soykökünə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə əsaslanan, şərəfli tarixi keçmişinə dərindən yiyələnən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan vətəndaş tərbiyə etməyə xidmət edir.

Tarix fənninin tədrisində innovativ yanaşmaların tətbiqi şagirdlərdə ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi yüksək mənəvi keyfiyyətlərin, mühakimə yürütmək, qoyulmuş problemə fərqli baxış nümayiş etdirmək, öz nöqteyi-nəzərini əsaslandırmaq, eyni zamanda öz hüquqlarını qorumaq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq bacarıqlarının formalaşmasında mühüm rol oynayır.

Hələ XX əsrin əvvəllərində milli demokratik fikrin görkəmli nümayəndələri, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları Azərbaycan övladları və gəncləri üçün milli dildə, milli ruhda, xalqın dini inanclarına uyğun, dünyəvi elmlərin, tarixin tədris edilə biləcəyi təhsil müəssisələri yaradılmasını zəruri hesab edirdilər. Onlar eyni zamanda bu məqsədə çatmaq üçün nümunəvi proqramlarının tərtib edilməsini və onları tətbiq edəcək müəllim heyətinin hazırlanmasını başlıca vəzifələr sırasında göstərirdilər.

Düzdür, Azərbaycan Xalq Cumhuriyyəti dövründə təhsil sistemində islahatlar aparılırdı. Lakin kadr çatışmazlığı da vardı. Qısa müddətdə məktəblərdə Rusiya imperiyasının təsirindən tam xilas olmaq mümkün deyildi. O zaman çar Rusiyası dövründən qalma rus dilində dərsliklərdən də istifadə olunurdu.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə milli dərsliklərin hazırlanması prosesi yeni başlayırdı. 1919-cu ildə "Türk əlifbası", "Təzə elmi hesab", "Türk xalqlarının tarixi" və s. dərslikər nəşr olundu. Eyni zamanda məktəblər Türkiyədən alınmış dərslik və tədris vasitələri ilə təmin edilirdi.

Digər bir məsələ tarixin tədrisində mənbələrdən istifadə problemidir. Təcrübə göstərir ki, təlim prosesində mənbələrdən sistemli, məqsədəuyğun istifadənin şagird nailiyyətlərinin inkişafında, keyfiyyətin yüksəldilməsində əhəmiyyəti böyükdür. Lakin mənbələr şagirdlərin istifadəsi üçün dərsliklər qədər həmişə asan və əlçatan olmur. Məsələn, Azərbaycan tarixi məsələlərini öyrənmək üçün A.A.Bakıxanovun "Gülüstani – İrəm " əsərindən təlim prosesində istifadə oluna bilər. Bu əsərdə qədim dövrdən Rusiya işğalına qədərki dövrdə Azərbaycan tarixi məsələləri əhatə edilmişdir. Lakin aydın məsələdir ki, dərsliklərin hazırlanmasına qoyulan tələblər başqadır. Monoqrafik məzmun daşıyan mənbələrin, arxiv materiallarının təhlili daha ciddi yanaşma, müqayisəli təhlillərin aparılmasını tələb edir.

Elmi araşdırmalar göstərir ki, zaman, dövr dəyişdikcə tarixin tədrisinə də fərqli münasibət olmuş, tarixi fakt, hadisə və proseslərin şərh və izahında yeni yanaşmalar, yeni texnologiyalar özünü göstərmişdir. 1920-ci ildə Sovet Rusiyası tərəfindən Azərbaycanın işğal edilməsi nəticəsində ölkəmizdə tarixi hadisə və proseslərin öyrənilməsi, tədrisi metodologiyası da dəyişdi. Dərsliklərdə sovet ideologiyası təbliğ olunurdu. Azərbaycan tarixinin SSRİ tarixinin tərkibində öyrənilməsi nəzərdə tutulur və bu da formal xarakter daşıyırdı. Faktik olaraq Vətən tarixinin tədrisi diqqətdən kənarda qalırdı. Dərsliklərin məzmunu sovet ideologiyasına xidmət edən Azərbaycan vətəndaşı yetişdirilməsinə xidmət edir, təlim-tərbiyə prosesində sovet vətənpərvərliyi, kommunist partiyasına sadiqlik təbliğ olunurdu.

Araşdırmalr göstərir ki, XX əsrin ikinci yarısından etibarən Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizdə yüzlərlə yeni tədris ocaqları, ümumtəhsil, hərbi məktəb və ali məktəblər açılmışdır. Bu dövrdə həyata keçirilən yeniliklər uzaqgörən siyasətin nəticəsi kimi dəyərləndirilməlidir.

XX yüzilliyin sonlarında dövlət müstəqilliyi bərpa olunandan sonra təhsil sahəsində canlanma baş verdi. Xüsusilə Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nı imzalayandan sonra təhsil sistemində köklü dəyişikliklər aparılmağa başlandı. Təhsilin struktur, məzmun, idarə edilməsi və digər istiqamətləri üzrə yeni yanaşmaların tətbiqi Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin daha da genişləndirilməsi imkanlarını artırdı. Ölkəmzidə təhsilin maddi-texniki bazası möhkələndirildi, yeni məktəb binalarının tikildi, məktəblər tədris resursları, müvafiq avadanlıqlarla təmin olundu, yeni dərsliklər hazırlandı. Məhz həmin illərdən etibarən Azərbaycan tarixinə diqqət artdı . 5-ci sinifdən 11-ci sinfədək Azərbaycan tarixi fənni (o zaman Ata yurdu adı ilə) tədris olunmağa başladı. Tarix fənninin məzmunu tamamilə yeniləndi. Müstəqillik illərində türk xalqlarının tarixi ilə inteqrativ tədrisin təşkilinə xüsusi diqqət yetirilməyə başlandı. Azərbaycan tarixinin tədrisində digər türk xalqlarının tarixinə müraciət olunması, təlim keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, təhsilalanların şəxsiyyətinin formalaşmasına da əsaslı şəkildə təsir göstərdi.

Müstəqillik illərində yeni tədris resurslarının hazırlanması və məktəblərdən onlardan istifadə təhsilalanların təlim marağının artırılmasına zəmin yaratdı. Təhsilalanlar təlim prosesinin daha fəal iştirakçısına çevrilməklə həm də pedaqoji əməkdaşlığın inkişafı təmin olundu.

İllər əvvəl şagirdlər texnologiyanın olmadığı zamanlarda dərsliklərlə kifayətlənirdi. Bu gün isə zəngin tədris resurslarından, multimedia vasitələrindən faydalanmaq imkanları genişdir. Eyni zamanda fənn müəllimlərinin yeni metodoloji yanaşmalara, yeni texnologiyalara əsaslanan müxtəlif metodlardan, müxtəlif formalardan istifadə etməklə təlim-tərbiyə prosesinin keyfiyyət göstəricilərinin davamlı olaraq yüksəldilməsinə təsir göstərmək imkanları artmışdır.

Bu gün tarix fənlərinin tədrisi prosesində öyrədən, öyrənən tərəflər bərabər iştirak edir.

Müəllim öyrədən-öyrənən münasibətlərində şagirdlə bərabər, həm də öyrənən tərəfdir. O, bu prosesdə iştirak etdikcə qarşı tərəfin maraqlarını anlayaraq öyrətmək istədiyi elmi, tarixi hadisə və prosesi şagirdə asan, sadə yollarla aşılamağa, şərh və izah etməyə çalışır. Tarix müəllimi biliyi hazır şəkildə şagirdinə ötürmür, o, bu işdə bələdçi rolunu oynayır, şagirdi istiqamətləndirir, problem

haqqında ona məlumat verir. Problemin həll yollarının tapılması isə şagirdin öhdəsinə düşür. Fənn müəllimi əvvəlcə, yolu necə getməli olduğunu da şagirdə çatdırır. Tədricən müəllim sonrakı dərslərdə geri çəkilir. Beləliklə, yolu necə getməli olduğnu şagird özü tapmalıdır. Tarix dərsləri vasitəsilə şagird geniş dünyagörüşünə, iti düşüncəyə, möhkəm yaddaşa malik olmağı, fikrini düzgün, səlis ifadə etməyi öyrənir. Hər şeydən əvvəl isə hər bir azərbaycanlı üçün müqəddəs olan "Azərbaycan" sözünün mənasını anlamağı, belə bir adı daşıyan yurd yerini, Vətəni sevməyi, qorumağı öyrədir.

Müasir düşüncəli müəllimin dərs prosesinin həm maraqlı və həm də nəticəyönümlü olması təbiidir. Nəticəyönümlü dərsdə şagird istənilən situasiyanı analiz edib öyrəndikcə özünə inamı artır. O, bu və ya digər məsələ, tarixi hadisə və proses haqqında fikirlərini sərbəst bildirir, getdikcə daha qətiyyətli çıxışlar etməyə başlayır. Və bu prosesdə öyrənənin (şagird, tələbə) özgüvəni, özünü təqdimetmə formaları da dəyişir. Təcrübə göstərir ki, əvvəl "əgər səhv cavab verərəmsə, yoldaşlarım mənə gülər" deyib sıxılaraq cavab verməyən, daha sonra qısa- qısa fikirlər bildirən şagird, sonrakı mərhələdə özünü sərbəst, aydın, anlaşıqlı dillə təqdim etməyi bacarır. Beləliklə, bu prosesdə şagirdin, yaxud tələbənin özgüvəni artır və verilən suallara aydın, anlaşıqlı, daha konkret və əsaslandırılmış şəkildə cavab verməyə çalışır. Apardımız tədqiqatlardan aydın olur ki, öyrənən tərəfin özünü təqdim etmək üçün ilk ayağa qalxdığı andan, addımından, təqdimatından onun düzgün qərara gəldiyinə, düzgün təqdimatına tam əmin olması çox vacib və əhəmiyyətlidir.

Təcrübə göstərir ki, bəzi şagirdlər qarşıya qoyulan problemin həllini bəzən uzun yol qət edərək tapırlar. Belə hallarda fənn müəlliminin həmin şagirdlərlə intensiv işləməsi, onları problemlə bağlı müzakirələrə daha çox cəlb etməsi vacibdir. Belə müzakirələr zamanı öyrənənlərin təfəkküründü, dərketmə qabiliyyətini inkişaf etdirmək, hadisə və prosesləri daha dərindən analiz və sintez etmək bacarıqlarının formalaşdırılması üçün əlverişli zəmin yaranır.Beləliklə, nəticədə öyrənənlər hər hansı bir problemin daha tez həll yollarını tapmaq imkanlarını mənimsəyir və qarşıya qoyulan vəzifələri reallaşdırmağı bacarırlar.

Təcrübə göstərir ki, öyrənməyin əsas yollarından biri ilk növbədə biliyə, bilik qazanmağa sevgi hissinin yaranması və bu hissin inkişaf etdirilməsidir. Müəllim tarix fənnini, eləcə də Azərbaycan tarixini elə tədris etməlidir ki, öyrənənlərdə tarix fənninə və tarix elminə, əlbəttə, ilk növbədə Vətən tarixinə sevgi hissi formalaşsın. Bundan ötrü təbiidir ki, müəllimin özünün də və tarixə sonsuz hissi bəsləməsi vacibdir. O, öz şagirdlərinə, tələbələrinə bu hissi aşılamaqdan zövq almalıdır.

Eyni zamanda hər bir şagird anlamalıdır ki, vətənimiz Azərbaycan torpağı ulu babalarımızın bizə yadigarı, mirasıdır. Ata-babalarımızın yaratdığı irsi, mili sərvəti qorumaq bizim borcumuzdur. Onu qorumaq üçün ilk növbədə tariximizi bilməli, onu dəyərləndirməyi bacarmalıyıq. Şagirdlər bilməlidirlər ki, Azərbaycanın xoşbəxt gələcəyi məhz indiki nəslin, yeniyetmə və gənclərin vətənpərvərliyindən, tarixə, doğma yurda olan sevgisindən, bağlılığından çox asılıdır. Ona görə də Azərbaycanın, digər türk xalqlarının tarixini öyrənmək, dəyərlərimizə sahib çıxmaq bizim borcumuzdur. Bu hiss və düşüncələrlə yaşayan şagird torpağını, dilini sevən, təbii sərvətlərini, sərhədlərini qoruyan, azərbaycançılıq ideologiyasına sadiq olan milli ruhlu vətəndaş kimi formalaşmaq imkanları daha genişdir.

Tarixə marağın elmi əsasları ibtidai siniflərdə, Azərbaycan dili fənninin tədrisində kiçik həcmli təlim materiallarının, mətnlərin, hekayələrin öyrədilməsi ilə qoyulur. Sinifdən-sinfə keçdikcə tarixi mövzuda təlim materialları artır və nəhayət, tarixin, o cümlədən Vətən tarixinin, türk dünyası tarixinin ardıcıl, sistemli tədrisi başlayır. 5-ci sinifdə epizodik şəkildə Azərbaycan tarixi, 6-11-ci siniflərdə isə sistemli şəkildə tarix fənləri (Azərbaycan tarixi və Ümumi tarix), həmçinin 8-ci siniflərdə Ortaq türk tarixi, 9-cu siniflərdə Zəfər tarixi tədris olunur. Bu illərdə şagirdlərin Vətən tarixini daha dərindən öyrənmək, dərk etmək və milli ruhlu şəxsiyyət kimi formalaşmaq imkanları daha da genişlənir.

Azərbaycan tarixi təkcə bir məkanın tarixi deyil. Eyni zamanda böyük bir xalqın, onun möhtəşəm dövlətçiliyinin, zəngin mədəniyyətinin, iqtisadi-sosial həyatının tarixidir. Fənnin tədrisində tarixi ardıcıllıq prinsipinin nəzərə alınması hadisə və proseslərin səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsində, tarixi prosesin mahiyyətinin öyrənilməsi və dərk olunmasında böyük əhəmiyyət kəsb edir. Belə ki, əvvəlki siniflərdə və dərslərdə mənimsənilmiş bilik və bacarıqlar yeni dərsin mövzusu ilə bağlı bir sıra mürəkkəb məsələlərə, o cümlədən öyrənilən hadisə və prosesin meydana gəlməsi, başvermə şərtlərinə aydınlıq gətirilməsinə istiqamət verir.

Məsələn, 6 –cı sinifdə Azərbaycan tarixi fənnindən "Azərbaycan ərazisində alt paleolit dövrü" mövzusu sagirdin tədqiqatı ilə başlayır. Artıq 5-ci sinifdə Azərbaycan tarixi fənnindən şagird ilkin biliklərə malik olduğundan 6-cı sinifdən bu fənnə baxış dəyişir. Qeyd etdiyimiz mövzunu (6 –cı sinifdə Azərbaycan tarixi fənnindən "Azərbaycan ərazisində alt paleolit dövrü" mövzusu) tədris edərkən fənn müəllimi təlim məqsədini zaman, məkan, şəxsiyyət və mədəniyyət məzmun xətləri baxımından müəyyənləşdirir:

Şagirdlərə: məzmun xətti olan zaman baxımından 1,5 milyon il bundan qabaq Azərbaycan ərazisində insan izlərinə rast gəlindiyini; məkan baxımından Azərbaycanın dünyanın ən qədim ərazilərindən biri olduğunu; dövlət məzmun xətti baxımından qədim Azərbaycan dövlətlərinin gələcəkdə yaranması üçün ilkin zəminin meydana gəldiyini; şəxsiyyət baxımından ilk insanı təhlil edəcək; mədəniyyət baxımından Azərbaycan türklərinin sivlizasiyaya qədərki mədəni inkişafini Qarabağ, Quruçay , Naxçıvanda, Kür-Arazda, Gəncə, Qazaxda, Lerikdə əldə olunan maddi mənbələri, mağaraların divarlarındakı təsvirlərin mahiyyətini, əhəmiyyətini öyrənəcək, izah etməyi bacaracaqlar.

Şagirdlər ilk növbədə ilk mövzunu mənimsəyərək Azıx adamının dünyada 4-cü tapıntı olduğunu öyrənirlər. Daha sonra bir sıra suallar ətrafında düşünmək, zəruri məsələləri araşdırmaq lazım gəlir: Azıx mağarası harada yerləşir? Azərbaycan niyə dünyanın qədim insan məskənlərindən hesab olunur? İlk insan harada yaşayırdı, nə ilə qidalanırdı? Məşğuliyyəti nə idi? Niyə belə adlanır? Azıx adamı hansı dövrdə yaşayıb, əmək aləti nədən hazırlanırdı ? və s.

Elmi araşdırmalardan məlumdur ki, Azıx mağarasında arxeoloji qazıntılar 1960-1982-ci illərdə tanınmış arxeoloq, tarixçi Məmmədəli Hüseynovun rəhbərliyi ilə aparılıb və 1968-ci ildə ibtidai insanın çənəsinin qalığı aşkarlanıb. M.Hüseynov mağaranı 10 təbəqəyə ayırıb. İlk on metr 1-6-cı təbəqələri əhatə edir. Qalan 4,5 metr 7-10-cu təbəqələrdir. İbtidai insanın çənəsinin qalığı 5-ci təbəqədən tapılmışdır.

Dərsdə müəllimin mövzu ilə bağlı şagirdlərini mənbələr əsasında məlumatlandırması, yaxud onların özünün apardıqları araşdırmalar əsasında yeni məlumatlar əldə etmək imkanları genişdir.

Ümumiyyətlə, araşdırmalar və təcrübə göstərir ki, tarixin tədrisində keyfiyyətin yüksəldilməsində, öyrənənlərin zəruri bilik və bacarıqlarının formalaşdırılması və dərinləşdirilməsində müasir yanaşmalara üstünlük verilməsi olduqca vacibdir. Bu baxımdan təlimin yeni məzmununun çatdırılması eyni zamanda müəllim amili ilə bilavasitə bağlıdır.

References

1. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/46052

2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulum) (v-xı siniflər). chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://arti.edu.az/wp-content/uploads/2024/11/T%C9%99kmill%C9%99sdirilmis-Az%C9%99rbaycan-tarixi-f%C9%99nn-kurikulumu-Layih%C9%99.pdf
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) (vı-xı siniflər). chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://www.arti.edu.az/noduploadeditor/files/9_%20%C3%9Cmumi%20tarix-kurikulum.pdf
4. Şükürov K., Ağalarov P., Quliyev N., Hüseynov E. Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün Azərbaycan tarixi fənni üzrə dərslik. Bakı: Şərq-Qərb, 2024, 169 s.
5. Ağalarov P., Quliyev N., Hüseynov E. Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün Azərbaycan tarixi fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: Şərq-Qərb, 2024, s.168 s.
6. Şükürov K., Ağalarov P., Quliyev N., Cabbarov H., Əlizadə R., Hüseynov E. Ümumi təhsil müəssisələrinin 6-ci sinifləri üçün Azərbaycan tarixi fənni üzrə dərslik. Bakı: Şərq-Qərb, 2024, 144 s.